# Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu

# Azərbaycan Milli Platformasının

**Nəzarət-təftiş qrupu haqqında**

**Ə S A S N A M Ə**

**Bakı  2021**

**Nəzarət-təftiş qrupu haqqında**

**Ə S A S N A M Ə**

Avropa İttifaqı Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumu Azərbaycan Milli Platformasının (bundan sonra Milli Platforma adlandırılacaq) Nəzarət-Təftiş Qrupu Milli Platformanın Nizamnaməsinə və digər daxili sənədlərin tələblərinə əməl olunmasına, maliyyə vəsaitinin Milli Platformanın məqsəd vəzifələrinə uyğun xərclənməsinə nəzarət edir, bu Nizamnamə ilə nəzərdə tutulan hallarda və qaydada Milli Platforma üzvləri barəsində intizam tənbehləri tətbiq edir.

Nəzarət-Təftiş Qrupu Milli Platformanın fəaliyyəti bu Əsasnamə ilə tənzimlənir.

**1. Ümumi müddəalar**

1.1. Milli Platforma Nizamnaməsinə uyğun olaraq Ümumi Yığıncaq tərəfindən 2 (iki il) müddətinə seçilir.
1.2. Say tərkibi Ümumi Yığıncaq tərəfindən müəyyən olunur.

**2. Nəzarət-təftiş qrupunun vəzifələri**

2.1. Nəzarət-təftiş qrupu aşağıdakı vəzifələri həyata keçirir:
2.1.1 Milli Platformanın Nizamnaməsinə və digər daxili sənədlərin tələblərinə əməl olunmasına nəzarət edir
2.1.2. Maliyyə vəsaitinin Milli Platformanın məqsəd vəzifələrinə uyğun xərclənməsinə nəzarət edir,
2.1.3. Milli Platformanın Nizamnaməsi ilə nəzərdə tutulan hallarda və qaydada Milli Platforma üzvləri barəsində intizam tənbehləri tətbiq edir.
2.1.4. Milli Platformanın idarəetmə orqanlarının hesabatlarına rəy verir
2.1.5. Ümumi Yığıncaq qarşısında hesabat verir.
2.1.6. Nizamnamə və Milli Platformanın daxili sənədləri ilə müəyyənləşən tələblərin pozulması barədə müraciətlərə baxır

3. **Nəzarət-təftiş qrupunun vəzifələri hüquqları**

**3.1.** Nəzarət-təftiş qrupu aşağıdakı hüquqlara malikdir:
3.1.2. Öz səlahiyyətlərinə aid bütün məsələlər üzrə məlumat **almaq**;
Milli Platformanın fəaliyyətinin təminatı, layihələrin həyata keçirilməsi ilə əlqədar pul vəsaitlərinin təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;
3.1.3. Nizamnamə və Milli Platformanın daxili sənədləri ilə müəyyənləşən tələblərin pozulması barədə barədə müraciətlərlə əlaqədar müvafiq araşdırma aparılması

**4. Nəzarət-təftiş qrupunun iclasları**

4.1. Nəzarət-təftiş qrupunun iclasları rübdə bir dəfədən az olmayaraq keçirilir
4.2. Növbədənkənar iclaslar Sədrin və üzvlərin yarıdan çoxunun təşəbbüsü ilə çağrıla bilər

4.3. Nəzarət-təftiş qrupunun iclasları barədə üzvlər ən az 7 (yeddi) qalmış məlumatlandırılır

4.4. Nəzarət-təftiş qrupunun iclaslarında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir

4.5. Nəzarət-Təftiş Qrupunun iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir

## 5. Nəzarət-təftiş qrupunun sədri

5.1. Nəzarət-təftiş qrupunun iclasında sadə səs çoxluğu ilə üzvlər arasından iki il müddətinə seçilir

5.2. Nəzarət-təftiş qrupunu təmsil edir

5.3. Nəzarət-təftiş qrupunu işini təşkil edir